**2009 07 23 00:00**
**MƏNBƏ:** www.lidertv.com

# Prezident İlham Əliyev Masazır yol ötürücüsünün açılış mərasimində iştirak edib

Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun üzərində inşa edilən Masazır yol ötürücüsünün açılışı olub. Prezident ilham Əliyev mərasimdə iştirak edib.

Körpünün planı ilə tanış olan Dövlət Başçısına məlumat verildi ki, Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun 12-ci kilometrində inşa edilən Masazır yol ötürücüsünün uzunluğu 84 metr, eni isə 24,5 metrdir. Prezident İlham Əliyev körpünün ətrafında aparılan abadlıq işləri barədə məlumat verildi. Qeyd olundu ki, gələcəkdə də ərazidə abadlıq və yenidənqurma işləri davam etdiriləcək.

Prezident İlham Əliyev Bakı Dairəvi yolunun tikintisi ilə bağlı aparılan işlərlə də tanış olub. Dövlət başçısına yolun istinad divarlarının texniki – iqtisadi göstəricilərii barədə məlumat verildi. Bildirildi ki, yolun tikintisi zamanı yamaclarda aşkar edilən çatların və sürüşmənin qarşısının alınması məqsədilə 22359 kvadrat metrlik torpaq istinad divarların 10 faizi başa çatdırılıb. Dövlət başçısı Bakı-Rusiya, Bakı-Gürcüstan və Bakı-İran sərhədləri avtomagistrallarını birləşdirəcək bu layihə üzrə tikinti işlərinin keyfiyyətli yerinə yetirilməsilə bağlı tapşırıqlarını verdi.